# Musiqi və elm sahəsində Azərbaycanı dünyada tanıdan Aleksandriya Sultan-zadə fon Brusseldorfun qeyri-adi tədqiqatı

## O, dünyada səs elmləri sahəsində ilk elmi araşdırma aparır

Əfqan Qafarlı

***Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafında böyük xidmətlər göstərmiş məşhur qarmonçalan, "Kor Əhəd" kimi tanınmış Əhəd Əliyevin adı bu gün də hörmət və ehtiramla xatırlanır. Ustad sənətkar haqqında çox yazılıb, çox danışılıb...***

***Modern.az saytının bu yazısında Kor Əhədin nəticəsindən - Amerika Birləşmiş Ştatları və digər ölkələrdə Aleksandriya Sultan-zadə fon Brüsseldorf kimi tanınan Sevinc Sultan-zadədən bəhs edəcəyik. Daha doğrusu, onun musiqi sahəsindəki fəaliyyətindən və elmi araşdırmasından...***

***O, Bakıda - mühəndis Çingiz Sultan-zadənin ailəsində doğulub. Babası Əməkdar mühəndis-energetik Həsən Sultan-zadə və nənəsi "Fəxri dəmiryolçu" Leyla Sultan-zadə tərəfindən böyüdülüb. 23 nömrəli orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq fakültəsinin opera bölməsinə qəbul olunub, 1991-ci ildə isə ali musiqi təhsilini Amerika Birləşmiş Ştatlarında davam etdirmək şansı qazanıb.***







Aleksandriya Sultan-zadə fon Brüsseldorf 2006-cı ildə ABŞ-ın Riçmond şəhərindəki Virciniya Birliyi Universitetinin (VCU) opera ifaçılığı istiqaməti, musiqi üzrə bakalavr dərəcəsinə yiyələnib.

2013-cü ildə isə ABŞ-ın qədim Prinston şəhərinin mərkəzində yerləşən, dünyanın öndə gedən Rayder Universitetinin Vestminister Xor Kollecinin Opera İfaçılığı və Elmi Vokal Pedaqogika üzrə magistr dərəcəsini alıb.

ABŞ-da yaşayarkən "Crestar Bank" təqaüdünü alıb, "Operafestival di Roma" Beynəlxalq Opera Təlim Proqramına qəbul edilib və laureat olub, Romada peşəkar vokal sənətini, italyan dilini öyrənib.

2012-ci ildə İtaliyanın Florensiya şəhərində Florensiya Opera Proqramında, 2013-cü ildə Avstriyanın Vyana şəhərində Vyana Lider Romans Proqramında və eyni ildə Avstriyanın Qraz şəhərində Amerika Müsiqişünaslıq İnstitutu (AİMS) proqramında iştirak edib, bir sıra fəxri fərman və şəhadətnamələrlə təltif edilib.

28 il Amerikada yaşamış, orada həm bakalavr, həm də magistr təhsili almış Aleksandriya xanım hazırda ABŞ və Azərbaycan vətəndaşıdır.

O, indi soprano, vokal pedaqoq, səs elmi (Voice Science) üzrə tədqiqatçı və elmlər namizədidir.

Vokal ifaçısı olaraq Amerika və Kanada şəhərlərinin, Avropa ölkələrinin opera və konsert zallarında solist kimi çıxış edən Aleksandriya Sultanzadə fon Brüsseldorf Bakıda - Beynəlxalq Muğam Mərkəzində, Dövlət Filarmoniyasında da konsertlər verib. Onun ifa etdiyi məkanların siyahısı xeyli genişdir: Vaşinqtondakı Con F.Kennedi Mərkəzi, Nyu-Yorkun Linkoln Mərkəzinin Julliard konsert zalı, Virciniya Opera Teatrı, Kanadanın Niaqara Festivalı, Vyanada Şubert və Motsart tarixi muzeyləri, Avstriyanın tarixi Eggenberq Palace sarayı, Romanın Palazzo S. İvo Alla Sopianza sarayı...

***Aleksandriya Sultan-zadə fon Brüsseldorf 2006-cı ildə ABŞ-ın Riçmond şəhərindəki Virciniya Birliyi Universitetinin (VCU) opera ifaçılığı istiqaməti, musiqi üzrə bakalavr dərəcəsinə yiyələnib.***

***2013-cü ildə isə ABŞ-ın qədim Prinston şəhərinin mərkəzində yerləşən, dünyanın öndə gedən Rayder Universitetinin Vestminister Xor Kollecinin Opera İfaçılığı və Elmi Vokal Pedaqogika üzrə magistr dərəcəsini alıb.***

***ABŞ-da yaşayarkən "Crestar Bank" təqaüdünü alıb, "Opera-festival di Roma" Beynəlxalq Opera Təlim Proqramına qəbul edilib və laureat olub, Romada peşəkar vokal sənətini, italyan dilini öyrənib.***

Bu məkanlarda Azərbaycan operalarından oxuduğu ariya və romanslar ona başucalığı gətirib. Aleksandriya xanım öz ifaları ilə dahi bəstəkar Üzeyir Hacıbəylinin ABŞ-da tanınması və tərənnüm edilməsində əvəzolunmaz xidmətlər göstərib.









Amma Aleksandriya Sultan-zadə fon Brüsseldorf təkcə ifaçılıqla məşğul deyil. O, həm də diaspor işində yaxından iştirak edir və elm sahəsində qeyri-adi tədqiqat aparır.

Bu günlərdə Modern.az-la həmsöhbət olarkən "Öz doğma vətənimi Amerikada layiqincə təmsil etməyə çalışmışam" deyən müsahibimizdən öyrənirik ki, okeanın o tayında Azərbaycanın adı və mədəniyyəti ilə bağlı bir çox tədbirlərə qatılaraq, ürəkdən iştirak edib. Amerikada yaşadığı müddətdə Vaşinqtonda yerləşən ABŞ-Azərbaycan Ticarət Palatası, ABŞ Ticarət Palatası, Azərbaycan-Amerika Cəmiyyəti kimi peşəkar təşkilatların üzvü olub. Bir sıra diplomatik tədbirlərdə Azərbaycan musiqi mədəniyyətinin təbliği ilə bağlı məruzələr və ifalarla çıxış edib.

Yəni uzun müddət qürbətdə yaşasa da, daim qəlbən, ruhən Azərbaycana bağlı olub, doğma vətənin adı ilə bağlı olan istənilən tədbirə cani-dildən qatılıb.

2006-cı ildən etibarən Tomris Azərinin rəhbərlik etdiyi "Amerika Azərbaycan Cəmiyyəti"nin xətti ilə, eləcə də ölkəmizin ABŞ-dakı səfirliyi və BMT-dəki nümayəndəliyi tərəfindən reallaşdırılan əksər tədbirlərdə, həmçinin diaspor təşkilatlarının işində ictimai fəal kimi yaxından iştirak edərək yüksək qiymətləndirilib, iki dəfə fəxri fərmana layiq görülüb.

***"Heç zaman yadımdan çıxmaz, 2012-ci ildə Azərbaycanın Müstəqillik Günü münasibətilə "Amerikanın Azərbaycan Cəmiyyəti" tərəfindən Nyu-Yorkdakı "Empaer Steyt" sarayında təşkil olunmuş tədbirdə bir vokalçı kimi hər iki ölkəmin – həm Azərbaycanın, həm də ABŞ-ın himnini oxumuşdum. Azərbaycanın ABŞ-dakı səfirliyinin, BMT-nin, Türkiyənin, Bolqarıstanın, Makedoniyanın, Özbəkistanın və təbii ki, Birləşmiş Ştatların 100-dən artıq siyasətçi və diplomatının iştirak etdiyi rəsmi-siyasi tədbirdə hər iki ölkənin himninin ifası azərbaycanlı sənətçiyə etibar edilmişdisə, bu, mənə və bizə göstərilən inamın, etimadın təzahürü idi", - deyən müsahibimiz diaspor sahəsindəki fəaliyyətinin kiçik bir epizodunu xatırladıb.***

**(ardı gələn sayımızda)**